# Səfəvilər dövlətinin qurucusu

**Azərbaycan dövlətçilik tarixinin ən parlaq simalarından biri olan Şah İsmayıl Xətai - tam adı Əbül Müzəffər İsmayıl ibn Heydər əs-Səfəvi - 1487-ci il iyulun 17-də Ərdəbil şəhərində dünyaya gəlib. O, Səfəviyyə təriqətinin banisi, böyük sufi və mütəfəkkir Şeyx Səfiəddin Ərdəbilinin (1252-1335) nəslindən idi. İsmayılın atası məşhur dini-siyasi lider və döyüşçü Şeyx Heydər, babası isə Səfəviyyə hərəkatının fəal davamçısı Şeyx Cüneyd olub. İsmayılın anası Aləmşah bəyim Azərbaycan tarixində mühüm rol oynamış məşhur Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı, eyni zamanda Sultan Yaqubun bacısı idi. Bu ailə bağları Səfəvilərlə Ağqoyunlular arasında siyasi ittifaqın möhkəmlənməsində önəmli rol oynayıb. Ağqoyunlular uzun müddət Səfəvilərlə yaxın münasibət qurmağa çalışsalar da, Səfəviyyə təriqətinin və Qızılbaş hərəkatının güclənməsi onlarda narahatlıq yaradırdı.**



Şah İsmayılın uşaqlıq illəri faciəli və çətinliklərlə dolu olmuşdur. Atası Şeyx Heydər Ağqoyunlu hökmdarları ilə döyüşlərin birində öldürüldükdən sonra ailə üzvləri - anası Aləmşah bəyim, böyük qardaşları Sultanəli və İbrahim - Ağqoyunlular tərəfindən həbs olunmuşdu. O zaman İsmayılın cəmi iki yaşı var idi. Ailə beş il ərzində Şirazda və İstəxr qalasında həbsdə saxlanılmışdır. 1493-cü ildə Ağqoyunlu hökmdarı Rüstəm Bayanduri onları azad etsə də, çox keçmədən qərarından peşman olaraq yenidən İsmayılı yaxalatmağa cəhd etmişdi. Bu zaman Rüstəm Bayanduri Ərdəbilə beş min nəfərlik süvari göndərsə də, İsmayıl və qardaşlarını ələ keçirə bilməmişdir. Onun tərəfdarları gizlincə İsmayılı əvvəlcə Ərdəbildə, daha sonra isə Gilan və Rəştdə qoruyublar. Azadlığa çıxdıqdan sonra İsmayıl məşhur alim və filosof Şəmsəddin Lahicidən ərəb və fars dillərini öyrənmiş, dini elmlərlə yanaşı, hərbi sənətini də mükəmməl mənimsəmişdir. Onun erkən yaşlarından göstərdiyi zəka və liderlik bacarığı gələcəkdə də böyük dövlət xadiminin formalaşmasına zəmin yaradıb.

İsmayıl 12 yaşında siyasi və hərbi mübarizəyə qoşulmuşdur. Ağqoyunlu dövlətində gedən daxili çəkişmələr onun üçün əlverişli imkan yaratmışdır. Qızılbaş tayfalarının (Əfşar, Qacar, Təkəli, Zülqədər, Ustaclı) dəstəyi ilə İsmayıl Ərdəbilə doğru yürüş etmiş və qısa müddətdə böyük ordu toplamağı bacarmışdır. 1499-cu ildə Ərzincanda keçirilən məşhur toplantıda Qızılbaş əmirləri ilə birlikdə Şirvanşahlar üzərinə yürüş etmək qərara alınmışdır. 1500-cü ildə Şamaxı yaxınlığındakı Cabanı döyüşündə İsmayıl Şirvanşah Fərrux Yasarın böyük qoşununu məğlub etmiş, Fərrux Yasar əsir düşərək öldürülmüşdür. Ardınca Qızılbaş ordusu Bakını tutmuş, Şirvan xəzinəsini ələ keçirmiş və bölgədə tam hakimiyyət qurmuşdur.



1501-ci ildə İsmayıl Təbrizə daxil olaraq özünü şah elan etmiş və Səfəvilər dövlətinin əsasını qoymuşdur. Dövlətin adı ulu babası Şeyx Səfiəddin Ərdəbilinin şərəfinə seçilmişdi. 1503-cü ildə Ağqoyunlu hökmdarı Sultan Murad üzərində qazanılan qələbə ilə Ağqoyunlu dövləti tamamilə süquta uğradılmışdır. Şah İsmayılın hakimiyyəti dövründə dövlət sərhədləri sürətlə genişlənmişdir: 1503-cü ildə Mazandaran, 1504-cü ildə Yəzd, Kirman və Fars vilayətləri, 1506-cı ildə Mərəş və Diyarbəkir, 1508-ci ildə isə Bağdad və bütün İraq əraziləri Səfəvilər dövlətinə birləşdirilmişdir. Şah İsmayıl Bağdadda olarkən müqəddəs ziyarətgahları qorumağa xüsusi diqqət göstərmiş, talançılıqla məşğul olan dəstələri ləğv etdirmişdir. Ən mühüm qələbələrdən biri 1510-cu ildə Mərv döyüşündə Şeybani xan üzərində qazanılmışdır. Bu döyüş nəticəsində Xorasan, Herat, Bədəxşan, Kabil və Qəndəhar Səfəvilərin hakimiyyətinə keçmiş, Herat imperiyanın ikinci mühüm mərkəzinə çevrilmişdir.

İlk illərdə Şah İsmayıl Osmanlılarla ehtiyatlı siyasət yürüdürdü. Osmanlı sultanı II Bəyazid 1504-cü ildə Səfəvilər dövlətini tanımışdı. Lakin Yavuz Sultan Səlimin taxta çıxması ilə münasibətlər gərginləşdi. Yavuz Səlim qızılbaşlara qarşı sərt tədbirlər gördü, onların minlərlə tərəfdarını edam etdirdi. 1514-cü ildə Çaldıran döyüşündə Şah İsmayıl ciddi məğlubiyyətə uğradı. Osmanlı ordusunun odlu silahlarla güclənməsi və İsmayılın döyüşə ciddi hazırlıq görməməsi bu məğlubiyyətin əsas səbəblərindən idi. Çaldıran döyüşü Səfəvilərin qərb istiqamətində genişlənməsinin qarşısını aldı, lakin dövlətin əsas mövqelərini sarsıda bilmədi. Şah İsmayıl bu döyüşdən sonra böyük hərbi yürüşlərə son qoyaraq dövlətin daxili idarəçiliyi və mədəni inkişafı ilə məşğul oldu. Şah İsmayıl yalnız görkəmli dövlət xadimi və sərkərdə deyil, həm də şair və mədəniyyət xadimi idi. O, Azərbaycan türkcəsini dövlət dili elan etmiş, fars dili ikinci plana keçmişdir. Onun dövründə Azərbaycan dili ədəbi və diplomatik münasibətlərdə üstün mövqe tutmuşdur.

Şah İsmayılın poeziyası İmadəddin Nəsimi, Yunus İmrə və Qazi Bürhanəddin kimi klassiklərin təsiri altında formalaşıb. "Xətai" təxəllüsü ilə yazdığı şeirlərdə vətən, ədalət, qəhrəmanlıq və ilahi eşq mövzuları əsas yer tutur. Onun "Divan"ı, "Dəhnamə"si və "Nəsihətnamə"si Azərbaycan ədəbi irsinin nadir inciləridir. Rəvayətlərə görə, Şah İsmayıl gözəl səsə malik idi, bərbətdə (simli musiqi aləti) ifa edir və bəzən dərviş paltarı geyinərək xalqın arasında gəzirdi. O, sadə təbiəti ilə xalq arasında böyük rəğbət qazanmışdı. 1524-cü ilin iyununda Qarabağ düzündə ov zamanı xəstələnən Şah İsmayıl Ərdəbilə qayıtmış, sonra isə Təbrizə yola düşərkən Sərab yaxınlığında səhhəti daha da ağırlaşmışdır. Sərabın Mənqutay adlı yerində bütün cəhdlərə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmamışdır. 1524-cü il iyunun 23-də 37 yaşında vəfat edən Şah İsmayıl Ərdəbildə babası Şeyx Səfiəddinin məqbərəsində dəfn edilmişdir.

Şah İsmayıl Xətai öz qısa, lakin parlaq ömrü ilə Azərbaycan tarixində böyük iz qoymuşdur. Onun qurduğu Səfəvilər imperiyası Yaxın Şərqin ən güclü dövlətlərindən birinə çevrilmiş, Azərbaycan dili və mədəniyyəti yeni yüksəliş mərhələsinə çatmışdır. Xətai həm dövlət qurucusu, həm də böyük şair kimi xalqımızın yaddaşında əbədiyaşar şəxsiyyət olaraq qalır.

**Musa BAĞIRLI,**
**"Respublika".**